Azərbaycan milli kitabxanası


# Kredo

MÜBARİZƏSİDİR! TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA

Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 43-44 (1173-1174) 07 dekabr 2023-cü il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


# HEYDƏR ƏLİYEV - 100

# İNSAN, TARİX VƏ ZAMAN



*Poema-esse*

Doxsan üçüncü il - soyuq yay keçir,
Zamanın yolları uçurum, dərin...
Ürəyi titrəyir, qəlbi dərd içir
Yurdun taleyini düşünənlərin.

Kəsilmiş, çırpınan başdı məmləkət,
Qanı göl-göl olub, laxtalanırdı.
Bir cansız meyitdi, daşdı səltənət,
Torpağa gömülüb taxtalanırdı.

Başsız bir karvana varmı yol açan,
Yanır, viran qalır kəndlər, şəhərlər...
Vahimə içində qovulan, qaçan,
Üfüqdə qaralır aydın səhərlər...

Bir gəlin üz tutur ulu Tanrıya:
Ya məni quş elə, yaş daşa döndər!
Dağ da dözə bilməz belə yaraya,
Nicat ver, Ya Rəbbim, xilaskar göndər!

Kimin ətəyinə uzansın əllər,
Bu millət bəs kimə pənah gətirsin.
Bəs kimi haraya çağırsın dillər,
Ürəyi yanğıyla min ah gətirsin.

Tarix çiyin çəkir, suallar müşkül;
Alınlar düyünlü, fikir pərişan.
Zaman çaşbaş qalır, cavablar məchul,
Vətəndi, taledi axı qarışan...

Min ildi yolumuz işığa, nura,
Haqqın ətəyindən tutub gəlmişik.
Tarix dərəsindən yıxıla-dura,
Necə acıları udub gəlmişik.

Salam, Böyük İnsan - tarix çağırır,
Zülmətdən, zillətdən haylanır Vətən.
İndi darda qalan bayraq çağırır,
Sənin yollarına boylanır Vətən.

Döndər bu gəmini yaxın sahilə,
Xilas et, sovuşdur qayalıqlardan.
Əl edən, çağıran, baxan sahilə
Sən apar, sən keçir milləti dardan.

Haqqın-həqiqətin qəlbi dağlanır,
Qorxaq əsirgəyir bir qaşıq qanın.
Azad gələcəyə yollar bağlanır,
Ayaqlar altında tapdanır qanun.

Sən yaxşı bilirsən yer nə, göy nədir,
Sənin alın yazın millətin yolu.
Vətənin qəlbində yara göynəyir,
Çağırır vüsalı həsrətin qolu.

Göyləri titrədər, səsi can üzər
Fırtına içində üzən gəminin.
Başında fəlakət, bir ölüm gəzər
Səmtini itirən, gəzən gəminin.

Nəsillər öyünən fədakar ömür, -
Yaddaş heykəl qoyar əməllərinə!..
İlahi sevgilər ərimir, ölmür,
Əbədi şahiddir zaman, qərinə!..

Dünyanın əşrəfi insan adına
Ucalan saraylar alışdı, yandı.
Tarix kölgə tutmaz açıq alına
Qorunar şərəfi, məsləki, andı.

* * *

Xalq-oğul - ulduzlar tapışıb gedir,
Vətənin əsgəri komandanısan.
İllər işığından yapışıb gedir,
Millətin ziyası, səhər danısan.

Salam Böyük İnsan - aydın həqiqət,
Səsini eşidir planet, kürə.
Görsən bu salama bircə xəyanət,
Qəzəbin kükrəyib, vulkan püskürə.

Düşmən qabağında mərdanə, mətin,
Azərbaycan boyda bir səngərdəsən.
Məntiqin qırılmaz, çətindən çətin,
Yenilməzlik rəmzi, bir sərkərdəsən.

* * *

Salam Mənim Atam - tarix yazası;
Adına ehtiram əbədi yaşar.
Səndən üz döndərən bir gün azası,
Güvənən dağ yarar, zirvələr aşar,

Qurduğun-tikdiyin vətən sarayı,
Azərbaycan adlı əbədi qala.
Xoşbəxtdi ötsə də illəri, ayı,
Memardan nişanə - abidə qala.

*Əli Rza XƏLƏFLİ*

*4.XI.2001*